## AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanın şimal-qərb regionlarında ekoturizmin inkişaf problemləri**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**

Qrantın məbləği: **45 000 manat**

Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/05/2-M-05**

Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Şəki-Zaqatala inzibati bölgəsi Azərbaycan Respublikasının şimal-qərb hissəsini əhatə edir. Qədim tarixə malik regionun sosial-iqtisadi və mədəni cəhətdən inkişafı ölkəmiz üçün çox vacibdir. Şəki-Zaqatala coğrafi-iqtisadi regionuna Şəki, Zaqatala, Qax, Balakən, Oğuz və Qəbələ kimi rayonlar daxildir. Bölgə dağlıq, dağətəyi və qismən düzənlik zonaları əhatə edir. Baş Qafqaz dağları bölgəni şimaldan gələn soyuq küləkdən mühafizə edir. Həmçinin iqlim şəraitinin daha da mülayimləşməsinə meşəliklər, hündür dağlıqlar və bu kimi başqa faktorlar yardımçı olur. Ümumiyyətlə, bölgənin təbii coğrafi-şəraiti olduqca əlverişlidir və region ekoloji sərvətlərlə zəngindir. Ərazidə çox sayda mineral su və bulaqlar var ki, bundan vaxtilə yerli sakinlər müalicə və təsərrüfat işlərində geniş istifadə etmişlər. Hətta hazırda da bəzi su mənbələrindən profilaktika işlərində faydalanırlar. Dərə bulağı, Qoşa bulaq, İmam bulağı (Balakən) və Qax suyu (Qax) kimi su ehtiyatları məhz bu qəbildəndir. Regionun torpağı olduqca münbitdir. Dağ yamaclarında, çay və dərə vadilərində əkin sahələri mövcuddur ki, yerli əhali əkinçiliklə, xüsusən də dəmyə əkinçiliyi ilə məşğuldur. Aran bölgəyə yaxın olan hissələrdə isə suvarmaya əsaslanan əkinçilik geniş yayılmışdır. Bundan əlavə, dağətəyi hissələrdə qarışıq, sıx meşəliklərdə və yaylarda enliyarpaqlı və iynəyarpaqlı ağaclar, meyvə və giləmeyvələr, dağlarda isə cır meyvələr yetişdirilir. Həmçinin suayırıcılarında ağac növləri nisbətən azalır. Yüksəkliklərdə fıstıq meşəlikləri çoxluq təşkil edir, |

daha yüksək ərazilərdə isə alp (dağ) çəmənlikləri yerləşir. Şəki-Zaqatala bölgəsində müxtəlif heyvanlar, quşlar, balıqlar yaşayır. Məhz ərazidə məskunlaşmış qədim əhalinin həyatında da ovçuluq və balıqçılıq xüsusi yer tutmuşdu.

Bölgədəki dağətəyi və dağlıq hissələrində iqlimin müxtəlifliyi burada turizmin inkişafına kömək edir. İlboyu iqlimin dəyişməsi, yağıntılar, isti və soyuq havaların hər biri təbiətə ayrı bir gözəllik bəxş edir. Məhz bu elə ekoloji mühitin zənginləşməsinə, o cümədən ekoloji turizmin inkişafına səmərəli sürətdə təsir edir. Məlumdur ki, ekoturizm sahəsi insanlara təbiətin inci varlıqlarını təqdim edir. Bölgənin səfalı təmiz havası, o cümlədən flora və faunası ilə birlikdə hidroloji abidələrin də mövcudluğu ərazinin turizm sektoru üçün əhəmiyyətini yüksəldir və onların füsunkar görünüşü buraya daha çox turistin axınına şərait yaradır. Bildiyimiz üzrə, iqlimin ekoturizm üzərində böyük təsiri var. Şəki-Zaqatala iqlim şəraitinin əlverişli olması buranı ziyarətə gələn turistlər üçün çox vacibdir. Yerli və xarici qonaqlar, adətən, bölgənin turizmdəki üstün və fərqli cəhətlərinə diqqət yetirirlər. Həmin faktorlar regionun ekoturizminə müsbət təsir edən amillərdəndir. Turistlər buraya gəldikdə ilin istənilən fəslində mövsümlərin gətirdiyi gözəl mənzərə ilə tanış olurlar. Məhz bu əsasda iqlimin uyğun şəraiti və düzgün ritmi ziyarətçilərin bölgəyə marağını daha da artıra bilər.

Bütün bunların nəticəsidir ki, Şəki-Zaqatala bölgəsinin ekoturizm potensialı yüksəkdir. Bu məsələnin araşdırılması və genişləndirilməsi regionun ekoloji turizm cəhətdən inkişafı üçün çox önəmlidir. Mövzunun aktuallığı da məhz buradan qaynaqlanır. Layihədə iqtisadi bölgənin rayonlarının ekoloji turizm sahəsi üzrə inkişaf perspektivlərini ön plana çıxardaraq, sektorun daha da irəliləməsi üçün həlli yollarını araşdırılır.

Məlumdur ki, bölgə coğrafi baxımından, çox əlverişli mövqeyə sahibdir. Məhz tədqiqatın obyekti Şəki-Zaqatala regionunun rayonları, onun təbii və mədəni irs nümunələridir. Predmeti isə bölgənin ekoloji turizm potensialının Azərbaycan ekoturizm sistemində rolunu araşdırmaqla, dünya standartlarına əsasən, uyğunluğunu öyrənməkdir. Bu zaman isə dünya ekoturizm təcrübələrinə müraciət etmək məqsədəuyğundur.

Layihənin əsas məqsəd və vəzifələrinə aşağıdakılar daxildir:

1) Azərbaycan Respublikasında turizm sahəsində Şəki-Zaqatala bölgəsinin ekoturizm üzrə əhəmiyyət dərəcəsini müəyyənləşdirmək;
2) Şəki-Zaqatala ekoturizminin inkişaf perspektivlərini araşdırmaq;
3) Regionun ekoturizmin inkişaf problemlərini öyrənmək və inkişafına maneə olan amilləri tədqiq etmək;
4) Bölgənin ekoturizminin inkişafında ekoloji, sosioloji və kulturoloji amillərin vəhdətini təhlil etmək;
5) Ərazinin ekoloji sərvətlərini nəzərə alaraq, ekoturizm üzrə potensialını öyrənmək;
6) Azərbaycan ekoturizmdə regionun tərkibində olan təbii və mədəni irs nümunələrinin mühafizəsinin önəmini araşdırmaq;
7) Şəki-Zaqatala bölgəsinin ekoturizmində insan və təbiət arasındakı qarşılıqlı münasibətlərin vacibliyinin, onların təsir mexanizmlərinin, ekoloji mühitdə baş verən dəyişikliklərin və ona təsir edən sosioloji faktorların təhlili aparmaq;
8) İnzibati bölgənin ekologiyasının qorunmasının ekoturizm üçün vacibliyi vurğulamaq və bu istiqamət üzrə aparılan maarifləndirmə, tərbiyə və təhsil məsələlərini təhlil etmək;
9) Şəki-Zaqatala ekoloji turizminin inkişafında mədəni faktorların rolunu tədqiq etmək;
10) İqtisadi regionun ekologiya üçün faydalı olan istirahət məkanlarının, habelə turizm obyektlərinin ekoturizm sektoruna verdiyi töhfənin araşdırılması;
11) Azərbaycanın şimal-qərb regionlarında ekoloji turizmin inkişafını beynəlxalq standartlarına uyğun olaraq, təhlil etmək və bu cəhətdən imkanlarının artırılması üçün tədqiqat işləri aparmaq;
12) Dünya ekoloji turizmində Şəki-Zaqatala ekoturizminin potensialını araşdırmaq;
13) Dünya ekoturizm təcrübəsindən bəhs edərək onların regionda tətbiq edilməsinə diqqət

yetirmək və onun inkişaf prespektivlərindən yüksəldilməsi üçün mümkün təkliflər irəli sürmək

Layihəni hazırlayarkən Azərbaycan Respublikasının şimal-qərb rayonlarının təbii və mədəni resurslarına nəzər salınmış, onların ekoloji baxımdan əhəmiyyəti araşdırılmış, həmçinin ekologiya və turizm arasındakı əlaqəyə əsaslanaraq, ekoturizm potensialı tədqiq edilmiş, təbii-mədəni irsi öyrənilmiş, regionun ekoloji turizm potensialının inkişaf perspektivlərinə təsir edən amillərə diqqəy yetirilmişdir. Bu faktorlar əsasən, təbii və antropogen təsirlərdir. Məhz layihədə həmin maneələr və onların yaratdığı fəsadlar araşdırılmışdır. Bununla belə, bölgənin ekoturizm potensialına sosioloji və kulturoloji nöqteyi-nəzərdən yanaşılmışdır.

Cəmiyyətin bölgədəki ekoloji sərvətlərinin qorunmasında aparılan maarifləndirmə işlərdəki rolundan və bunun insanın mədəni cəhətdən şəxsiyyət kimi formalaşmasındakı funksional əhəmiyyətinə malikdir. Aydındır ki, Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi rayonunun ekoloji turizm sahəsinin inkişafı istiqamətində uğurlu siyasət aparmışdır. Danılmaz faktdır ki, bu işdə Ulu öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci xanımı Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsləri əvəzsizdir. Digər tərəfdən, mədəniyyət profilində aparılan işlərin məhz ekoturizm üçün önəmi barədə məlumatlar verilmiş və bu əsasda görülmüş mədəni tədbirlər nümunə olaraq göstərilmişdir. Həmçinin dünya ekoturizminə əsaslanaraq, innovativ yeniliklərə nəzər salınmışdır ki, məhz bunların regionda tətbiqi məsələsi qaldırılmışdır. Bölgənin ekoloji mühitinin müxtəlifliyi turizm sektoruna təsir göstərir ki, bu da regionda ekoturizmin inkişafına şərait yaradır. Buna görə də, bölgənin ekoloji mühitinin qorunması çox vacibdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının dövlət siyasəti bu məsələ ilə bağlı bir çox qərarlar qəbul etmişdir. Bu siyasətin yönümündə ölkədə bir sıra layihələr həyata keçirilmiş, proqramlar tərtib edilmişdir. Həmçinin bölgədə yerləşən təbii və maddi sərvətlər layiqincə qorunur və təşkil edilən tədbirlər nəticəsində təbliğ edilir. Aydındır ki, qoruq və yasaqlıqların yaradılması bu cəhətdən çox önəmlidir. Məhz dövlət siyasətimizdə bu barədə böyük nailiyyətlər əldə edilmişdir.

Həmçinin Şəki-Zaqatala bölgəsinin rayonlarında da qoruq və yasaqlıqların olması çox əhəmiyyətli addımdır. Həmin hissəsindəki təbiət qoruqları və yasaqlıqlar təbiətin mühafizəsində əsas yer tutur və onların iş prinsipi ekoloji problemlərdə həlledici rola malikdir. Bildiyimiz kimi, dünya meşə örtüyü təbii fəlakətlər və antropogen təsirlərin nəticəsində məhv ola bilər. Qoruq və yasaqlıqların ərazidə yaradılması və bu sahədə işlərin aparılması bitki örtüyünün genişlənməsinə şərait yardır. Habelə təbiətin digər canlı varlıqları olan fauna nümayəndələri də meşələrdə ağır həyat şəraiti ilə yaşayır. Qoruq və yasaqlıqların olması Şəki-Zaqatala bölgəsindəki məskunlaşan məməlilərin, quşların, sürünənlərin və suda-quruda yaşayanların mühafizəsi təmin edir. Bununla belə, nəsli tükənməkdə olan heyvanların çoxaldılma prosesi zoomühitin genişlənməsinə imkan verir. Şəki-Zaqatala bölgəsindəki qoruq və yasaqlıqlar təbiəti qorunmaqla yanaşı, ərazinin ekoloji mühitini də təmizləyir və ekoloji tarazlığın tənzimlənməsinə səbəb olur. Qoruq və yasaqlıqların təşkil edilməsi, həmçinin Şəki-Zaqatala ekoturizm sahəsinə də müsbət təsir göstərir. Belə ki, regionda ekoloji mühitin bərpası ekoturizmin inkişafına zəmin yaradır. Aydındır ki, ekoloji mühitin daha da yaxşılaşdırılması əraziyə daha çox yerli və xarici qonaqların axın etməsinə səbəb olur. Belə ki, bölgənin ekologiyasının qorunması ölkədə ekoturizm sektoruna müsbət təsir göstərir və ərazinin sosial-iqtisadi, mədəni aspektdən yüksəlişinə şərait yaradır.

Məlum məsələdir ki, ekoloji problemlərin yaranmasında antropogen təsirləri rolu böyükdür. Məhz bu səbəbdəndir ki, ekoturizmin inkişafı üçün ən önəmli tədbirlərdən biri də insanların ekoloji maarifləndirmə prosesinə cəlb etməkdir. Şəki-Zaqatala bölgəsinə müntəzəm olaraq, elmi, təbiət-tarixi və təbiət turlarının təşkili edilməsi ilə turistlər təbiəti araşdırır və müşahidələr aparırlar. Təcrübələr, əldə edilmiş biliklər və elmi ekspedisiyalar vasitəsilə ziyarətçilər təbiətin mühafizəsi ilə bağlı bəzi fikirlərə nail olurlar. Milli qoruqlarda, yasaqlıqlarda, parklarda yaxud təbiətin hansısa bir hissəsində təşkil olunan bu turlar səyahət edənlərə ətraf mühitlə tanış olmaq, eyni zamanda

ekologiya haqqında daha çox məlumat əldə etmək imkanı verir. Bu turlar həm də Şəki-Zaqatala iqtisadi bölgəsinin də ekoturizm potensialını qaldırır. Regionda ekoloji turizmin inkişafında əlverişli mühitin vacibliyini vurğulamaq üçün ekologiya sahəsində biliklərin artırılması çox vacibdir. Bu işə xarici qonaqlarla yanaşı, yerli qonaqları da cəlb etmək yaxşı olar. Həmçinin turistlərə təbiətin qoyununda yerləşən istirahət məkanlarının çirkləndirilməməsinə dair məlumatlar vermək və bu yerlərin ekoloji tarazılığının pozulmasının qarşısını almaq üçün xüsusi nəzarəti artırmaq məqsədəuyğundur.

Ekoloji təhsildə insanlar təbiətin mühafizəsi haqqında lazımi biliklərə yiyələnirlər. Belə ki, bu maarifləndirmə prosesində əhali əsas məsələlərlə bağlı məlumatlandırılmalıdır: yaşıllıqların qorunması üçün meşələrə qulluq etmək, daha çox ağac əkmək, ətrafa zibil atmamaq, təmizlik qaydalarına riayət etmək, təbiət canlıların, nəsli kəsilmiş və kəsilməkdə olan növlərin və çempion və veteran ağacların ekologiyamız üçün vacibliyini ifadə edən video təlimatlar nümayiş etdirmək, televiziya verilişləri hazırlamaq, internetdə bunlarla bağlı materiallar dərc etdirmək, elmi seminar və ya konfranslar təşkil etmək, ekoloji məkanların, o cümlədən qoruq və yasaqlıqları, hidroloji və tarixi-memarlıq abidələri ziyarət edən zaman qayda-qanunlarına riayət edilməsi barədə broşura, məlumat kitabçası kimi məlumatverici bazalar təşkil etmək və s. Bununla belə, ekoloji maarifləndirmənin inkişafı üçün mövcud işləri genişləndirmək daha da yaxşı olar ki, bu prosesə məktəbliləri, o cümlədən tələbələri cəlb etmək və onların ekoloji təhsil və tərbiyəsinə xüsusi önəm vermək lazımdır. Digər tərəfdən, televiziya, radio, xəbər saytları kimi kütləvi informasiya vasitələri ekoturizm haqqında geniş məlumatların verilməsi üçün zəruridir. Bu mənbələr vasitəsilə insanlar təkcə Şəki-Zaqatala bölgəsində deyil, Azərbaycanın bütün bölgələrində ekoturizmin potensialı haqqında məlumat əldə edə və bunun üçün ətraf mühitin qorunmasının vacibliyini daha yaxşı anlaya bilərlər. Məhz buradan da aydın olur ki, ekoloji problemlərin yaranmasında da, həllində də insan aparıcı rola malikdir. Ekoloji maarifləndirmə prosesinin məğzində ekoloji təhlükəsizlik durur. Yer üzü hazırda mühüm ekoloji problemlərlə, o cümlədən iqlim dəyişikliyi ilə mübarizə aparır. Məhz bu səbəbdəndir ki, regionun iqlim şəraiti barədə buraya gələn turistlərin öncədən məlumat alması mühüm məsələdir. Çünki insanların iqlimə adaptasiya olması məsələsi var. Ola bilsin ki, hansısa bir şəxs rayonun mühitinə uyğunlaşmaqda çətin çəksin və bu çətinlik onun fiziki sağlamlığına mənfi təsir göstərsin. Bunun üçün, əvvəlcədən müəyyən tədbirlər alınması mühüm əhəmiyyət kəsb edir. Bununla belə, Şəki-Zaqatala regionunun istirahət guşəsi olaraq da istifadə edilən məkanlara – hidroloji abidələrinə, dağlıq yerlərinə gedən turistlərin, o cümlədən yerli sakinlərin təhlükəsizliyinin qorunması əsas məsələlərdən biridir ki, bu istiqamətdə görülən işlərin daha da qüvvətləndirilməsi məqsədəuyğundur.

Aparılan tədqiqatlar təsdiq edir ki, ekologiya, mədəniyyət və turizm anlayışları üçü bir-birilə sıx əlaqəlidir. Bunun nəticəsində mədəniyyət və ekoturizm terminləri də qarşılıqlı vəhdət əsasında yaranmışdır. Ekoturizm turizmin bir növüdür və bölgənin ekoloji cəhətdən təmizliyi, habelə turizm sektoru üçün əhəmiyyəti tədqiq edilir. Məhz bu anlayışa kulturoloji mövqedən yanaşdıqda, ilk olaraq, ekologiya, mədəniyyət və turizm sahəsinin birləşməsinin izahatına ehtiyac duyulur. Belə ki, ekoturizmin özündə də elə mədəni aspektlər mövcuddur. Onun inkişafında dünya regionlarında mövcud olan ekoloji mədəni tədbirlər, ekoloji maddi mədəniyyət nümunələri, ekoloji məkanlar və s. çox vacibdir. Qeyd edilən ekoloji məkanlara ekomuzey, yasaqlıq, qoruq, milli park kimi müəssisələri aid etmək olar. Digər tərəfdən, dünya miqyasında ekoturizmin qorunması üçün təbii və mədəni abidələrin mühafizəsi məsələsi hələ keçmiş zamanlardan mövcud olmuşdur. Belə ki, ekologiyanın mühafizə edilməsi üzrə aparılan bütün işlər yalnız ekoloji mühiti deyil, həmçinin dünyanın mənəvi aləminin də qorumasına xidmət edir. Eyni zamanda ekoturizm sosial, iqtisadi və mədəni yöndən inkişaf edir. Belə desək ki, ekoloji turizm ziyarətçilərin təbiətin qanunauyğunluqlarının pozmadan və zərər vermədən təbii ərazilərə məsuliyyətlə səyahət etmək və səyahət zamanı təbiətin gözəlliklərindən həzz almaq və qiymətləndirmək məqsədi daşıyan sosial fəaliyyət növüdür. Başqa sözlə, ekoturizm təbiət qoynunda mədəni asudə vaxtını səmərəli və keyfiyyətli dəyərləndirmək istəyən insanlar üçün çox əlverişlidir. Yəni ekoturizmin özü elə

mədəni bir fəaliyyət növüdür ki, hazırda dünyanın müxtəlif yerlərində geniş yayılmışdır. Məhz bu fikirlər eko-mədəni turizm anlayışını ortaya çıxardır. Bu anlayış öz növbəsində turistlər üçün yaradılan ərazilərin həm ekoloji, həm də mədəni aspektdən birləşdirilməsindən meydana çıxan turizmin fəaliyyət formasıdır. Məhz bu birləşmə Şəki-Zaqatala bölgəsinə də effektiv təsirini göstərir. Belə ki, regionun ekoturizmi üçün mədəni tədbirlərin əhəmiyyəti böyükdür. Bölgə eko-mədəni cəhətdən çox funksional yerdədir ki, burada ekoturizm üçün yararlı tarix-mədəni abidələr və ekoloji-mədəni obyektlər çoxdur. Regionun ekoturizminin təbliği üçün sərgi, festival kimi mədəni tədbirlər həyata keçirilir və onlar dünya miqyasında maraqla qarşılanır. Bu istiqamətdə işlərin davam edilməsi və mədəni tədbirlərin tərkibinə regionun bio və zoomüxtəlifliyinin təbliği yönümlü işlərin əlavə edilməsini məqsədəuyğun hesab edirik. Şəki-Zaqatala bölgəsinin ekoturizm sektorunun genişlənməsində mədəni amillərin rolunun böyük olduğunu nəzərə alsaq, ekoturizmin daha da yüksəlməsi üçün ekoloq, kulturoloq və turizm sahəsində fəaliyyət göstərən mütəxəssislərin birgə çalışmasının uyğun olan bilər.

Digər tərəfdən, Şəki-Zaqatala regionunda ekoturizmin inkişafında da mədəni obyektlərin rolu olduqca böyükdür. Məhz bunların arasına milli-mədəni irsin əsas nümunələri hesab olunan təbiət və tarixi-mədəni abidələr, ekoloji mühitinin qorunmasına xidmət qoruqlar, yasaqlıqlar, milli parklar daxildir. Bununla belə, rayonlarda yerləşən təbiət sərvətləri, tarixi və memarlıq abidələri bölgənin zəngin təbii və mədəni irsə malik olduğunu əyani şəkildə sübuta yetirir. Belə ki, dünyanın müxtəlif hissələrində təbii irsinin nümunələrindən biri olan qocaman bitkilər mövcuddur. Həmin veteran və çempion ağaclar yüksək bioloji dəyərə malikdir. Onlar ekoloji təmizlik funksiyası yerinə yetirirlər. Bu cəhətdən təmiz cəmiyyət, habelə insan sağlamlığı üçün çox dəyərlidirlər. Onlar atmosferi təmizləyir, o cümlədən oksigeni artırır. Belə ki, insan yaşayışı üçün, sağlam ekologiya üçün bu ağaclar çox vacibdir. Bu ağaclar vəhşi təbiətin kiçik heyvanları üçün əsas sığınacaq obyektidir. Onların yaşaması üçün həmin ağacların varlığı önəmlidir. Əsrlərboyu ömür sürmüş bu bitkilər, həmçinin təbii irsin ən başlıca nümunəsidir. Belə ki, çempion və veteran bitkilərə Şəki-Zaqatala inzibati bölgəsinin altı rayonun da rast gəlinir. Qeyd edək ki, tarixi və mədəni abidələrin olduğu yerlərdə, həmçinin təbii-ekoloji sərvətlər də mövcuddur. Qədimliyi xarakterizə edən bu qocaman ağaclar, adətən, pir, xan saray kimi yerlərdə yerləşir. Bu isə onların yüksək mədəni dəyərinə sahib olduğunu göstərir. Həmin ağaclar görüntü cəhətdən gözəl mənzərə yaradır, nəticədə, regionun peyzajı canlanır. Bu səbəbdən, həmin bitkilər mədəni-tarixi funksiyaya sahibdirlər. Qəbələdə “Pirəşərif baba” adlı kompleks abidələrin olduğu hissələrdə saqqızağac meşəliyi var ki, oradakı ağacların yaşı 200-300 ildir. Həmzəli kəndində “Şıx övliyası” və ya “Şeyx Molla Məhəmməd Baba qəbiristanlıq” tərəfdə giləmeyvəli qaraçöhrə ağacları var ki, onların yaşı 1000-1200 ilə bərabərdir. Məhz bu qaraçöhrə Azərbaycan Respublikasının ən qocaman qaraçöhrə ağacları hesab olunur və mühafizə edilir. Şəkidə isə ən qocaman ağaclara misal olaraq, “Qoşa Ziyarət Piri” ərazisindəki 300 yaşlı dağdağan, Şəki Xan Sarayının önündə yerləşən 2 ədəd 350 yaşlı şərq çinarı, Şəki avtovağzalı qarşısındakı 500 yaşlı şərq çinarı, “Babaratma Piri”nin 900 yaşlı şərq çinarı, Qudula kəndindəki 1000 yaşlı şərq çinarı, Şəkinin yaxınlığındakı 400 yaşlı “Səsverən Qovaq” kimi bitkiləri göstərmək olar. Qax rayonunda, adətən, rütubətsevən bitkilər bitir. Qaxın ən böyük ağacı 2000-ci ildə yıxılmış “Tasmalı palıdı” idi. Onun 1300 il yaşı vardı. Mütəxəssislər bu ağacın altında 20-30 yük maşının olduğunu düşünür. Buna görə də, həmin ağac avtobus dayanacağı idi. Bundan əlavə, rayonun Day kəndi qəbiristanlığında 500 illik, Güllük kənd qəbiristanlığında isə 450-600 yaşlı ağaclar var. Balakən şəhərində 40-45 yaşlı yapon kriptomeriyaları bitir ki, onlar dünyanın ən uzun ömürlü bitkisi hesab olur. Aydın olduğu kimi, çempion və veteran ağacları Şəki-Zaqatala bölgəsinin biomüxtəlifliyini daha da zənginləşdirir. Bildiyimiz üzrə, ekoturizm ekologiya və turizmin qarşılıqlı vəhdətini təşkil edir. Məhz regionun yaşıllığa qərq olması ekoloji turizmin inkişaf perspektivlərini yüksəldir. Xüsusilə də, qocaman ağacların olması bölgənin təbii irsinin zənginliyini ifadə edir. Təbii ki, əsrlərin bitkiləri ekoloji mühitin təmizliyində və mənzərənin gözəlləşdirilməsində xüsusi əhəmiyyətə malikdir. Bunlar isə birbaşa ekoturizmə müsbət təsir göstərir və onun inkişafına yardımçı olan əsas faktorlardan biri

hesab olunur. Həmçinin qocaman bitkilər regiona dünyanın müxtəlif yerlərindən, o cümlədən respublikamızın digər bölgələrindən gələn turistlərin də diqqətini cəlb edə bilər. Məlumdur ki, insanlar yaşıl mühitdə vaxt keçirməyi xoşlayır. Məhz bioloji mühitinin rəngarəngliyi də turistləri buraya cəzb etməyə kifayət edər. Məlumdur ki, insanlar qədimi nəsnələrə çox diqqət yetirirlər. Çünki bunlar insanların zehnində keçmişə dair təsəvvürlər yaradılmasına kömək edir. Məhz Şəki-Zaqatala regionun çempion və veteran ağacları da təbii irsinin qədimliyi ifadə edir. Bununla belə, qocaman ağaclar haqqında insanlara maraqlı gələcək müxtəlif məlumatlar da vardır. Belə ki, Qəbələnin Həmzəli kəndində yerləşən “Şıx övliyası” və ya “Şeyx Molla Məhəmməd Baba qəbiristanlığı” ərazisi 1 hektara yaxındır və burada Şeyx Molla Məhəmməd dəfn edilmişdir. Bununla əlaqədar, rəvayət nəql edilir. Deyilən görə, vaxtilə burada müqəddəs ərazi hesab olunan qaraçöhrə meşəliyi olub. Əraziyə təyin olunmuş yeni hakim isə həmin meşəliyi qırmaq haqqında əmr vermişdir. Nəticədə, ilk dəfə baltanı vurarkən ayağını kəsir və qanaxmadan ölür. Məhz bu səbəbdəndir ki, həmin yer xüsusi sayılır və burada təmizlik işlərinin aparılması günah hesab olunur.  Qəbələdə Bum kəndində Zərgərli qəbiristanlığında palıd massivi hesab olunan hissə “pir” adlandırılır. 2 hektarlıq ərazidə palıd, qarağac və vələs kimi ağaclar yetişir. Həmin sahə ilə bağlı rəvayət yayılıb. Rəvayətə əsasən, əvvəllər əkin yeri yaratmaq üçün həmin meşəliyi kökdən təmizləmək üçün işlər aparmışlar, ancaq həmin hissəyə doğru yaxınlaşdıqda ağac kəsən adamlardan birinin ağzı əyilir. Bununla da, əraziyə toxunulmur və orada palıd ağacından ibarət “pir” qorunur. Oğuzda Sincan kəndində yerləşən qəbiristanlıqda bir fistıq ağacı bitir. Bununla bağlı rəvayətə görə isə, toxum sel suları ilə dağ meşələrindən gələrək burada yetişmişdir. Rayonun Xaçmaz kəndində yetişmiş şərq çinarı yerli sakinlər tərəfindən “Diş piri” adlandırılmışdır. İnanca, əsasən, kimin dişi ağrıyırsa buraya gələrək, çinarın dirək gövdəsinə bir mismar vurur və bununla da şəfa tapırlar. Şəkidə Baqqal kəndindən kənarda “Mahmud ahın baba” yaxud “Mahmud əfəndi piri” kimi tanınan palıd meşəsi var. Bu yerdə ruhi və yel xəstəliklərin müalicə edildiyi barədə rəvayət edilir. “Xan sarayı”nın həyətində iki çinar mövcuddur. Deyilənlərə əsasən, çinarlar saray tikildikdəm sonra əkilmişdir. Başqa bir gümana görə isə, çinarlara vaxtilə xan adam bağlayıb cəza tətbiq etmişdir. Zaqatalada 1831-ci ildə inşa edilmiş bir kilsənin yanında şərq çinarı mövcuddur. Bu çinar barədə rəvayətə əsasən, bir zamanlar rayonda saxlanılan bir dənizçi kəşfiyyat aparmaq üçün həmin çinara çıxıb gizlənib, ancaq onun papağı yerə düşür və keşiş bunu görür, sonra keşiş dövlət məmurlarına xəbər verir və dənizçi tutulur.

Təbiət canlılarla zəngin olsa da, uzun müddətdir ki, çox böyük bir problemlə qarşı-qarşıya qalıb və hazırda bu uğurda güclü mübarizə aparır – bitki və heyvanların nəslinin tükənməsi. Getdikcə sürətlənən bu qlobal problem bir çox ölkəni narahat edir. Həmçinin bu məsələ respublikamızda, o cümlədən Şəki-Zaqatala bölgəsində də aktualdır. Bölgədə də həmçinin, bu hal mövcuddur və bunlara missal olaraq, göstərmək olar: enliyarpaq aqazillis, Qafqaz xanımotusu, kolxida şümşadı, adi şabalıd, parlaq kladoxeta, ayı findığı, alp mahmızlaləsi, köpəkdiliotu, budaqlı danaya, qafqaz xurması, pastuxov daşsarmaşığı, laqodex acıçiçəyi,  kəskiniyli ardıc, aptek dəfnəgilanarı, təkçıxıntılı zanbaq, natam limodorum, mlokoseviç plonu, qanadmeyvə yalanqoz, qırmızı tubulqa, dəmiryarpaq pirola, şərq çinarı, yuliya novruzçiçəyi, dəmirağac, kox şamı, barmaqvari bozqovqac, adi nar, Qafqaz xanıməli, sosnovski ağgülü, sarı xanıməli, Qafqaz dovşankələmi, kolxida stafulası, fişer ştembergiyasl, ətirli simfoloma, giləmeyvəli qaraçöhrə, gözəl telekiya, meşə üzümü, sarımsaqyarpaq pişikotu, alp vudsiyası, poru, qornstay, qafqaz xaclıcası, Aralıq dəniz tısbağası, alp rozaliyası, qəşəng böcək, apollon, alp satiri, nordman apollomu, mlokoseviç zolaqlı arısı, Dağıstan zolaqlı arısı, Qafqaz tetrası, iri qırğı, Qafqaz uları, berqut, məzar qartalı, qarapaça, bəbir, kaftar, vaşaq, çöl pişiyi, qaraquyruq gəlincik. Belə ki, təbiətin canlı varlıqları ekologiyanın əsasını təşkil etdiyi üçün, bilavasitə ekoturizmin inkişafına təsir edir. Onlar Şəki-Zaqatala bölgəsinin canlı təbiətinin əsas sərvətləridir. Nəsli kəsilmiş və kəsilməkdə olan varlıqların hər biri regionun ekoturizmini zənginləşdirən canlılarıdır. Məhz onların nəslinin kəsilməsinin qarşısının alınması, tədbirlərin gücləndirilməsi, təhlükədə olan canlıların bərpa edilməsi və çoxaldılması ekoturizm sahəsinin perspektivini yüksəltməyə səbəb ola bilər. Bildiyimiz üzrə, təbiətin gözəllikləri

hər zaman ekoturistlərin diqqət mərkəzindədir. Eyni zamanda insanlar həmişə təbiətin nadir və ecazkar varlıqları ilə tanış olmaq istəyirlər.
Şəki-Zaqatala bölgəsinin təbii irs ilə yanaşı, mədəni irs nümunələri ilə də zəngindir. Həmin abidələr keçmiş dövrün kulturoloji dünyagörüşünü, o cümlədən incəsənətini, memarlığını, yaşayış tərzini, dini inanclarını, adət və ənənələrini, sənətkarlığını dəqiq və qərəzsiz sübut edən mədəni sərvətlərdir. Bölgənin əsas mədəni sərvətlərinə arxeoloji və tarixi və memarlıq abidələri daxildir. Regionda müxtəlif kəndlərdə çox sayda arxeoloji və tarixi və mədəni abidələr abidələrini aiddir: Şeyx Bədrəddin türbəsi, Şeyx Məhəmməd türbəsi, Şeyx Mənsur türbəsi, Lələli torpaqqala, Böyük Sədd, Pirəşərif memarlıq abidəsi və qəbiristanlığı, Ustacan qülləsi, Həzrə qülləsi, Govurqala müdafiə qalası, Gələsən-Görəsən qalası, Zəyzid məbədi, Kürmük məbəd qalıqları, Alban abidəsi, Şeyx Şamil Qalaçası, Həsən Xan qalası, Aydınbulaq qülləsi, Muxas qülləsi, Cingözqala qalası, Hacı Murtuz qalası, nekropol, qəbiristanlıq, kurqan və yaşayış məskənləri və s. Digər cəhətdən, bəzi abidələr turizm məkanı olaraq da istifadə edilir. Məsələn, “Gələrsən-görərsən” istirahət zonası. Məkan Kiş kəndinin şimalında, Gələrsən-görərsən qalasının yaxınlığındadır. Üç əsas korpusdan ibarət olan həmin mərkəzin bir dəfəyə 45 turistə xidmət etmək şəraiti var. “Şəki-Karvansaray” mehmanxana kompleksi 1989-cu ildən etibarən mehmanxana kimi fəaliyyət göstərir. Daxilində insanların dincəlməsi üçün otaqlar mövcuddur. Buraya eyni zamanda 75 qonağa xidmət göstərmək imkanına sahibdir. Tarixi və memarlıq abidələrinin istirahət mərkəzi olaraq, turistlərin ixtiyarına verilməsi turizm üçün, habelə ekoturizm üçün böyük əhəmiyyət kəsb edir. Abidələri ziyarət edən, bu yerlərdə dincəlməyə gələn şəxslər mütləq ki regiounun ekoloji mühiti ilə də təmasda olurlar. Məhz bu isə ekoloji turizmin inkişafına kömək edir.
Məlumdur ki, Şəki-Zaqatala bölgəsinin təbii aləmi zəngindir. Məhz bu cəhət onun ekoturizm sektorunda rolunu möhkəmləndirir. Bununla belə, dünyada bölgənin təbii sərvətlərinin və nemətlərinin nümayiş edilməsi onun turizm üçün yararlı yer kimi inkişafına səbəb ola bilər. Elə bu səbəbdəndir ki, ekoturizmlə mədəniyyətin əlaqəsi meydana gəlir. Belə ki, ekoloji sərvətlərin təbliği üçün festival, sərgi tipli mədəni tədbirlərin təşkili çox önəmlidir. Şəki-Zaqatala bölgəsində də bu tipli tədbirlər həyata keçirilməkdədir. Həmin festivallara misallar gətirək. 2015-ci ildə Respublikamızda keçirilən “Xalq yaradıcılığı paytaxtları” layihəsində Qax rayonu “Milli mətbəx paytaxtı” elan edilir və bunun əsasında müxtəlif mədəni tədbirlər gerçəkləşdirilir. Məhz bunlardan biri də rayonun Qum kəndində baş tutan “Bəsləsən atlas olar tut yarpağından” adlı ümumrayon festivalıdır. Tədbirdə bölgənin tut ağaclarından hazırlanmış nemətləri sərgilənir, milli rəqslər edilir, yerli sənətkarların əl işlərindən ibarət satış-sərgi təşkil edilir. Məhz bu festivalda rayonun biomüxtəlifliyinin tut ağacı cəhətdən zəngin olduğunu ifadə edilir. Həmçinin Qax rayonunda kənd təsərrüfatı sahələrindən olan arıçılığın təbliğ edilməsi və bu sahəyə marağın daha çox cəlb edilməsi məqsədilə festival keçirilir. “Bal bayramı” adlandırılan bu tədbirdə ictimai nümayəndələr, bal istehsalçıları və rayon sakinləri iştirak edirlər. Burada bal və arıçılıq məhsulları, arıçılıqda istifadə edilən avadanlıqlardan ibarət sərgilər təşkil edilir. Həmçinin müxtəlif növ təbii bal, arı südü, çiçək tozu, təbii arı yapışqanı, arı mumu və digər məhsullar da nümayiş etdirilir. Zaqatala ölkəmizdə qərzəkli meyvələrin ən başlıca rayonu hesab olunur. Bu səbəbdəndir ki, “Azərbaycanda Beynəlxalq Fındıq, qoz, şabalıd” adlı festivalı burada keçirilir. Festivalda yerli və xarici qonaqlar iştirak edir. Tədbirdə fındıq və qoz qabığı ilə sobanın yandırılması, onların məhsullarının qovrulması, şabalıdın saxlanılma qaydası, təndirdə fındıq çubuqlarının yandırılması, qərzəkli meyvələrlə bağlı yarış, sərgilər və s. kimi müxtəlif fəaliyyətlər nümayiş etdilir. Balakən rayonunda “Beynəlxalq xurma festivalı” keçirilir. Tədbirdə, adətən, yerli və xarici nümayəndələr iştirak edirlər. Festivalda iştirakçılar xurmadan hazırlanmış mətbəx məhsullarını, fərqli kompozisiyalar, müxtəlif üsullarla hazırlanmış əl işləri, rayonun mətbəxinə xarakterik olan süd çörəyinin – maxaranın bişirilməsi prosesi nümayiş edilir, müsabiqələr və konsert proqramı təşkil edilir. Aydın olduğu kimi, adları çəkilən ənənəvi festivalların təşkili Şəki-Zaqatala təbii sərvətlərinin dünya miqyasında tanınmasına yardımçı olur. Festivallar bölgədə bitki aləmini

göstərir ki, bu da ekoturizm üçün ərazinin faydalılığı ifadə edir. Məhz bu cür eko festivallar və sərgilərin keçirilməsi bölgənin biomüxtəlifliyini işarə edir.
Müasir dövrümüz texnologiyanın ən geniş yayıldığı dövrdür. Müasir texniki alətlərin turizmdə tətbiqi onun yerli və xarici turistlər arasında tanıdılmasında böyük əhəmiyyət kəsb edir. Həmçinin texniki avandalıqlardan Şəki-Zaqatala regionunun ekoturizminin təbliği prosesində də tətbiq edilməsi çox vacibdir. Ümumiyyətlə, regionun ekoloji mühiti, bioloji və zooloji aləmi çox zəngindir və onun təbliği bölgənin, o cümlədən Azərbaycan ekoturizminin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Belə ki, Azərbaycan regionlarının təbliği üçün hazırda ən aktiv platformalardan biri "Azerbaijan360" Virtual Tour Company-dir. Bu vebsayt 2014-cü ildən etibarən fəaliyyət göstərir və 360° virtual tur, dron çəkilişləri və 3D panoramlar həyata keçirən şirkətdir. Məhz www.azerbaijan360.az saytı "Azerbaijan360" Virtual Tour Company məhsuludur. Vebsayt "Go around Azerbaijan" sloganı ilə öz izləyicilərinə ölkə ərazisində fəaliyyət göstərən təhsil müəssisələri, muzeylər, tarix və memarlıq abidələri, restoranlar, klublar, kafelər, butiklər, otellər, müalicə-bərpa mərkəzləri, əyləncə və alış-veriş mərkəzləri və bu kimi bir çox obyektləri virtual olaraq təqdim edir. www.azerbaijan360.az-ın imkanlarından istifadə etməklə ziyarətçilər dünyanın istənilən yerindən bir toxunuşla respublikanın bir sıra şəhər və regionlarını da virtual gəzmək fürsəti əldə edə bilərlər. Virtual turlar regionun mühitinin yerli və xarici ziyarətçilərə tanıdılmasına yardımçı olur. Qax şəhərində Heydər Əliyev parkının virtuallaşdırılması Qax rayonun ekoturizminin və ekoloji mühiti barədə məlumat verir. Turistlər sayta daxil olaraq, parkın daxilini rahatlıqla gəzə bilərlər. Bununla, sanki insan həmin parkı fiziki olaraq gəzir. Oxlar vasitəsilə turist parkın daxilində hərəkət edə bilər. Ümumiyyətlə, burada əkilən bitkilər, Qax rayonun bioloji mühitini ifadə edir. Digər tərəfdən, göstərdiyimiz vebsaytda Şəki xan sarayı, Kiş Alban kilsəsi kimi bölgənin tarixi və mədəni abidələri də virtual turlarda ziyarətçilərə təqdim edilir. Pandemiya dövrü ərzində virtual gəzintilər çox aktiv fəaliyyət göstərmişdir. Belə ki, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Yasamal rayon M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası bu ərəfədə "Vətənimizə virtual səyahət" adlı layihəni həyata keçirmişdir. Layihə çərçivəsində kitabxana Azərbaycanın bir çox şəhərlərinə, o cümlədən Qax, Şəki və digərlərinə virtual səyahətlər təşkil etmişdir. Qax rayon və Şəki şəhər mərkəzi kitabxanaları da fəal iştirak edərək, bölgənin turistik yerlərini tanıtmışdılar. Ümumiyyətlə, layihənin məqsədi ölkə başçısının "Biz birlikdə güclüyük!" şüarına dəstək olmaqla, mövcud karantin rejimində insanların vaxtlarını səmərəli keçirməyə təşviq etmək, tarixi-mədəni irsimizi tanıtmaqdır. 2020-ci ildə həmin idarənin digər bir müəssisəsi olan Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 3 nömrəli filialı Şəki Xan Sarayına virtual səyahət təşkil etmişdir. Xan Sarayı haqqında videoslayd hazırlanmış və kitabxananın instagram və facebook hesablarında paylaşımlar edilmişdir. Sosial mediada edilən paylaşımlar da öz növbəsində region barədə turistlərin məlumat alınmasında xüsusi rola malikdir. Həmçinin Azərbaycan kino sənətində Şəki-Zaqatala regionun rayonları filmlərin başlıca obyektinə çevrilmişdir. Bunlara misal olaraq, "Həm ziyarət, həm ticarət", "Arxadan vurulan zərbə", "Məryəm", "İnqiloylar" və başqalarının adlarını çəkmək olar. Məhz filmlər də bölgənin ümumi mühiti haqqında məlumat verir. Belə ki, Şəki-Zaqatala regionunun ekoturizmin təbliği prosesində virtual tur, sosial media paylaşımları və kinolar çox önəmli mövqeyə malikdir. Buna baxmayaraq, ekoturizm üçün bu təbliğat prosesinin daha da genişləndirilməsinə ehtiyac var.
Ekoturizm müasir dövrümüzdə turizm sektorunun ən əhəmiyyətli sahələrindən biri hesab olunur. Bu sahənin daha da inkişaf etməsi üçün xarici dövlətlər də fəal şəkildə çalışırlar. Hələ 90-ci illərdən etibarən dünya ölkələri ekoturizm sahəsinin genişləndirilməsi üçün önəmli addımlar atmışdılar. Ekoturizm sahəsində dünyada geniş yayılmış yeniliklərdən biri də ekomuzeylərdir. 1970-ci ildən sonra dünyada Yeni Muzeyçilik adı ilə hərəkat başlandı. Bu yeni hərəkatın əsas məğzi standart muzey anlayışına qarşı duraraq, muzeyçiliyin cəmiyyətin bir həyat üsulu olaraq formalaşması və onun yeniləşməsini göstərmək idi. Məhz həmin hərəkat ilə muzeyin yeni modeli - ekomuzey yaradıldı. "Ekomuzey" anlayışı ilk dəfə 1971-ci ildə Fransada İKOM-un əvvəlki katibi Hyu de Varin və muzeyşünas Anri Rivera tərəfindən təklif edilmişdir. Bu fikri Rivera Skansen açıq

səma altında muzeyindən ilhamlanaraq irəli sürmüşdür. 1972-ci ildə isə Çilidə YUNESKO və İKOM-un nümayəndələrinin iştirakı ilə baş tutmuş konfransda yeni muzeyçilik – ekomuzey konsepsiyasından bəhs edilmişdir. Belə ki, 1984-cü ildə Kanadanın Kvebek şəhərində 15 fərqli ölkənin muzeyşünaslarının iştirakı ilə Beynəlxalq Ekomuzey / Yeni Muzeyologiya Seminarı Kvebek kitabı dərc olunmuşdur. Həmçinin 1985-ci ildə Portuqaliyanın Lissabon şəhərində 2-ci Yeni Muzeyologiya Seminarında MINOM, yəni Beynəlxalq Yeni Muzeyçilik Hərəkatı (International Movement for a New Museology) meydana gəldi. Ümumilikdə “ekomuzey” kəliməsi “eko” və “muzey” sözlərinin birləşməsindən yaranmışdır. “Eko” ekologiya sözünün ixtisar formasıdır və ətraf mühitlə canlı aləmin qarşılılıqlı vəhdətinə əsaslanır, “muzey” isə milli sərvətlərin mühafizə edildiyi obyekti ifadə edir. Ekomuzeyin əsas fəaliyyət istiqaməti müəyyən bir coğrafi bölgənin, onun təbii mühitinin, orada məskunlaşan yerli xalqın keçimiş tarixinin, mədəni irsinin mühafizəsi və təbliğ edilməsidir. 2012-ci ildə əldə edilən statistikaya görə, İtaliya (143), Fransa (87) və İspaniya (43) kimi Avropa ölkələri ekomuzeylərin yaradılması prosesində daha aktiv fəaliyyət göstərmişdilər. Həmin dövlətlərin tərkibində digərlərinə nisbətən daha çox ekomuzey mövcuddur. Hazırda isə onların sayının dünyada 600-dən çox olduğu barədə fikir irəli sürülür. Belə ki, Türkiyə, Braziliya, Çexiya, Argentina, Kanada, İsveç, Danimarka, Almaniya, Slovakiya, Avstraliya, Vyetnam, Yunanıstan, Çili, ABŞ, Norveç, İngiltərə, Finlandiya, Hindistan, Belçika, Hollandiya, Çin, Seneqal, Ekvador, Yaponiya, Meksika, İtaliya, Fransa, Polşa, Kosta Rika, Venesuela, Portuqaliya və digərlərində ekomuzeylər var. Dünyanın ən məşhur ekomuzeylərinə bunları göstərmək olar: Elzas (Fransa), Suotszya (Çin), Kalina Kantri (Kanada), Kateran (Şotlandiya), Vanoy və Judikariya (İtaliya), Bua-dyu-Lyuk (Belçika), Məymənd (İran), Hüsaməddindərə (Türkiyə), Qvineya (İspaniya), Vjosa-Aoos (Yunanıstan-Arnavutluk), Berqslaqen (İsveç) və s. Belə ki, Suotszya ekomuzeyi Asiya qitəsində təşkil edilmiş ilk ekomuzey hesab olunur. Berqslaqen ekomuzeyi isə Avropada ən yaxşı texniki və istehsalat tarixi muzeyidir. Adlarını çəkdiyimiz ekomuzeylər, adətən, yerli hökumət, dərnək, bələdiyyə, turizm təşkilatı, universitet, kooperativ kimi qurumlar, gənclərdən ibarət qruplar, həmçinin elm xadimi, müstəqil sahibkar kimi şəxslər tərəfindən yaradılmışdır. Eyni zamanda onların idarəetməsi isə qeyri-hökumət təşkilatı, dərnək, institut, kooperativ kimi qurum və yerli xalq tərəfindən aparılır. Ekomuzeylər məkan olaraq, adətən, kənd yeri, çay və çay qırağı, sənaye sahəsi, kömür mədəni zonası, vulkanik dağ kimi hissələrdə təşkil edilmişdir. Bunlarla yanaşı, ekomuzeylərdə həyata keçirilən turizm fəaliyyət növlərinə bunlar daxildir: sərgi, tədbir, balıqçılıq, quşların müşahidəsi, çay gəzintisi, arxeoloji məkanlarda gəzinti, tarixi və təbii məkanlarda gəzinti, qolf oyunu, silah atışı, xizək sürmə, velosiped sürmə, maşın sürmə, toxuculuq, tematik gəzintilər və s. Beləliklə, ekomuzeylərə gələn ziyarətçilər bu əyləncələrdən istifadə etmək imkanı əldə edirlər. Həmçinin ekoturistlər ekomuzeyə gəlməklə, regionun təbiəti, musiqi və rəqs sənəti, adət-ənənələrini, gündəlik yaşayış tərzi, mədəniyyəti, memarlığı, peyzajı, geyimi, dini inancı, dili, milli mətbəxi, kənd mühiti, təsərrüfat işləri ilə yaxından tanış ola bilərlər. Qeyd etdiyimiz fəaliyyətlərdən də aydın olduğu kimi, ekomuzeylər özlərində milli mirası mühafizə edir və bu miras mədəniyyət, sənaye yaxud təbiətə dair ola bilər. Bir sözlə, ekomuzeylər ziyarətçilərə bölgələrin maddi və mənəvi mədəniyyəti barədə məlumat əldə etməsinə imkanı yaradır. Bundan əlavə, həmin məkanlarda xarici və yerli ekoturistlərin istirahəti üçün xüsusi yerlər də təşkil edilir. Bildiyimiz üzrə, ekoturizm ekologiyanın, o cümlədən ətraf mühitin, hidroloji abidələrin, flora və faunanın, təbii resursların qorunmasına yardım edən və təbliğində əsas rol oynayan bir sahədir. Məhz ekomuzey də dünya ekoloji problemləri ilə əlaqədar olaraq, yaranmış bir anlayışdır. Ekomuzeylər mədəniyyət və təbiətin vəhdətinə əsasən fəaliyyət göstərir və birbaşa ekomədəni turizmin inkişafına şərait yaradır. Ekomuzeylər təbii mühit ilə birlikdə mədəni və tarixi dəyərləri də özündə yaşadır. Hər iki sahə bilavasitə bir-biri ilə əlaqədə inkişaf edir. Ekomuzeylərin təşkil edilməsi turizm və muzey sahəsi üçün bir yenilikdir. Bu yenilik isə turizmin, muzeyşünaslığın, mədəniyyətin və ekologiyanın inkişaf perspektivlərini yüksəldir. Ekomuzeylər ümumilikdə ekoturizm sahəsində turistlərə müəyyən imkanlar yaradır. Ekoturistlər ziyarət etdiyi regionu gəzərək asudə vaxtlarını həm xoş keçirir və əylənirlər, həm də ekoloji

| | |
|---|---|
| | biliklərini artırırlar. Səyahət zamanı ziyarətçilər kənd əhalisi ilə dialoq qura bilir və kənd mühiti, onların həyat tərzi barədə geniş məlumat əldə edirlər. Ekomuzeylər mütəxəssislər üçün əsl tədqiqat obyektidir. Araşdırmaçılar ekoturist olaraq, bölgəni ziyarət edərək, həm də, regionu dərindən tədqiq edə bilərlər. Belə ki, ekomuzey və ekoturizm anlayışları birgəlikdə inkişaf etdikdə turizm sahəsinə müsbət təsir göstərir. Şəki-Zaqatala bölgəsinin ekoturizm potensialı olduqca yüksəkdir. Regionun təbiət aləminin rəngarəngliyi, zəngin mədəni irsi ekoturizm cəhətdən dəyərli bir yerdir. Bölgədəki qoruq və yasaqlıqlar flora və faunanın mühafizə edilməsində böyük əhəmiyyət kəsb edir. Habelə dünyada geniş yayılmış ekoturizm fəaliyyət növlərini nəzərə alaraq, inzibati bölgənin müxtəlif fəaliyyətlər üçün faydalı ola bilər. Aydın olduğu kimi, dünya ölkələrində ekoloji turizmə xüsusi yer verilir və daha da irəliləməsi üçün xüsusi tədbirlər aparılır. Şəki-Zaqatala regionu zəngin təbii irsə malik olduğu kimi, qədim mədəni irsə də sahibdir. Onun hər bir rayonunda tarixi və memarlıq abidələri mövcuddur. Həmin memarlıq abidələri özündə keçmiş tarixin izini daşıyır. Regionun milli mətbəxi, dini inancı, etnik qrupunun müxtəlifliyi, xalq sənətkarlığı da məhz mənəvi mədəniyyətin əsas göstəriciləridir. Bütün bunlar ekoloji turizmin mədəni aspektlərini ifadə edir. Yuxarıda qeyd etdiklərimiz regionun ekoturizmində təbii və mədəni tərəfləri göstərir. Bu isə bölgədə ekomuzeyin yaradılması üçün şəraitin olduğuna işarədir. Dünya təcrübəsinə əsaslanaraq, ekomuzeylərin ölkəmiz üçün də çox vacib bir məsələdir. Xüsusən də, Şəki-Zaqatala kimi zəngin regionumuzda bu cür mədəni müəssisənin yaradılması ekologiya, mədəniyyət, muzeyşünaslıq və turizm üçün çox vacib bir addım ola bilər.<br>Layihənin yerinə yetirilməsi zamanı müxtəlif üsul və yanaşmalardan istifadə edilmişdir. Bu əsasda ekoloji mühitin mühafizəsində, ekotarazılığın pozulması uğrunda aparılan tədbirlər, habelə, həlli yollarında və ekoturizmin potensialının yüksəldilməsində yerli və beynəlxalq təcrübələrin müqayisəli-təhlili, habelə öncəki və müasir dövrün ekoloji problemlərinin müqayisəli-həlli, elmi ədəbiyyatlardan əldə edilən məlumatların nəzəri məlumatların, o cümlədən empirik təcrübələrin təhlili, bilavasitə müşahidə, ümumiləşdirmə, konkretləşdirmə, sistemləşdirmə kimi metodlara müraciət edilib. Həmçinin, layihədə elmi mənbələrə elmi-tənqidi yanaşma, sosioloji yanaşmalarından istifadə edilmişdir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Layihənin yekun mərhələsinin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi təqribən 100 % bərabərdir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | 1. Şəki-Zaqatala bölgəsinin ekoloji mühitinin müxtəlifliyi, təbii-coğrafi mühitinin rəngarənliyi, ekoturizm sektorunun inkişafında başlıca rol oyanır. Ancaq regionda çoxsaylı ekoloji problemlər mövcuddur. Bu əsasda ekoloji mühitinin bərpası və mühafizəsi uğrunda Azərbaycan Respublikasının apardığı dövlət siyasəti olduqca önəmlidir. Bu müvəffəqiyyətli işdə Ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci xanımı Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın səyləri əvəzsizdir. Qoruq və yasaqlıqların salınması, hidroloji, təbii və mədəni abidələrin mühafizə edilməsi, müxtəlif layihə və proqramların həyata keçirilməsi, ekoloji müəssisələrin yaradılması, qanunların və sərəncamların qəbul edilməsi və s. Həmçinin, dünya ölkələri ekoloji məsələlərinin həlli uğrunda daima aktiv olaraq çalışır. Məhz bunlar arasında həmin beynəlxalq tədbirlər çoxluq təşkil edir ki, ölkəmiz də bu işlərdə fəal iştirak edir;<br>2. Regionda ekoloji problemlərin yaranmasında təbii və antropogen amillərin təsirləri böyükdür. Həmin problemlər bölgənin ekoturizm potensialına maneə olur. Bunların həllində həmçinin, insanların xüsusi rolu var. Buna görə, ekoloji maarifləndirmə və ekoloiji təhsil istiqamətində önəmli addımlar atılır. Məhz bu yöndə aparılan işlər ekoturizmin sosial |

| | |
|---|---|
| | aspektdən araşdırlmasına yardımçı olur;<br>3. İrs sərvətləri və ekoturizm anlayışı bir-biri ilə əlaqəlidir və nümunələrini birbaşa ekoturizmin inkişafına təsir edən əsas faktorlardan biridir. Şəki-Zaqatala regionun təbii və mədəni irsi olduqca zəngindir. Bunlar arasında veteran və çempion ağacları, hidroloji abidələri, arxeoloji və tarixi və mədəni abidələri və s. var. Rayonlarda bu sərvətləri ziyarət edən turistlər birbaşa regionun ekoloji mühiti ilə tanış olurlar. Şəki-Zaqatala bölgəsinin mədəni irs nümunələrinin ekoturizmin inkişafı perspektivlərinin genişlənməsinə kömək edir;<br>4. Müasir dövrümüzdə ekoturizmin təbliği və genişlənməsi üçün çoxsaylı işlər görülür. Bu prosesdə müasir texnoloji avadanlıqların əhəmiyyəti böyükdür. Virtual turların tətbiqi, sosyal medyada paylaşılan foto və videolar, televiziya proqramları bu əsasda önəmli yer tutur. Bununla da, insanlarda hansısa bir region barədə məlumat alarkən, oranı ziyarət etmək istəyi oyana bilər. Məhz bu sadalananlar Şəki-Zaqatala ekoturizminin təbliği üçün də böyük əhəmiyyət kəsb edir; Bunlar vasitəsilə digər insanlar hansısa bir regionun ekoloji mühitini, o cümlədən turistlik məkanları barədə məlumat əldə edə bilərlər. Digər tərəfdən, dünyanın bir çox yerində yaradılan ekomuzeylər çox vacibdir. Ekomuzey və ekoturizm bir-biri ilə sıx bağlıdır və bir-birilərinə təsir edirlər. Buna baxmayarq, “ekomuzey” anlayışı insanlar tərəfindən kifayət qədər mənimsənilməmiş və bu barədə bilik zəifdir. Ekomuzeylər təbiət, tarix və mədəni irsin mühafizə edilməsi üçün çox önəmlidir. Müxtəlif funksiyaları yerinə yetirən bu yerlər Şəki-Zaqatala regionun da aktual olması vacib məsələdir. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | 1. G.Nazarova. Importance of the ecological environment of the north-western region of Azerbaijan. Annali d’Italia, 2022, №30, Vol 2, Florence, Italy. pp. 8-11, ISSN 3572-2436 http://www.itadiana.com/wp-content/uploads/2022/04/Annali-d%E2%80%99Italia-%E2%84%9630-part-2-2022.pdf<br>2. G.Nazarova. The importance of nature reserves and sanctuaries in the Sheki-Zagatala region in the development of ecotourism. Annali d’Italia, 2022, № 33, Florence, Italy, pp. 21-25, OPENAİRE index, ISSN 3572-2436, DOI: 10.5281/ZENODO.6907596 http://www.itadiana.com/wp-content/uploads/2022/07/Annali-d%E2%80%99Italia-%E2%84%9633-2022.pdf<br>3. G.Nazarova. Ecological problems of hydrological monuments of Sheki-Zagatala region. International independent scientific journal, 2022, №40, The Republic of Poland, pp. 3-8, OPENAİRE index, ISSN 3547-2340, DOI: 10.5281/ZENODO.6813297, http://www.iis-journal.com/wp-content/uploads/2022/07/IISJ_40.pdf<br>4. G.Nazarova. Endangered species of Sheki-Zagatala nature. Sciences of Europe, 2022, № 106, Praha, Czech Republic, pp.34-38,OPENAİRE index, ISSN 3162-2364, DOI: 10.5281/zenodo.7408548, https://www.europe-science.com/wp-content/uploads/2022/12/Sciences-of-Europe-No-106-2022.pdf |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | 1. Respublikamız regionların ekoturizm potensialının daha da inkişaf etməsi üçün daima aktiv şəkildə fəaliyyətdir. Buna rəğmən, insanların da bu işə daha çox diqqət yetirməsi vacibdir. Bu səbəbdən, ekoloji maarifləndirmə və təhsilin aparılması daha məqsədəuyğundur. Belə ki, elmi, təbiət-tarixi və təbiət turlarının təşkil edilməsi, bu işlərə insanların, o cümlədən məktəbli və tələbələrin cəlb edilməsi, regionun ekologiyası və ekoloji sərvətləri barədə yerli |

| | |
|---|---|
| | və xarici qonaqları maarifləndirilməsi üçün müvafiq işlərin daha da artırılması yaxşı olar. Məhz bununla da, regionun ekoloji turizminin inkişafında cəmiyyətin bir töhfəsi olacaqdır. Məlumdur ki, insan ekologiyanın başlıca qoruyucularından biridir;<br>2. Regionun ekoloji mühitinin mühafizəsində insan faktorunun rolunun artırılması çox vacibdir. Ekoloji ərazilərin mühitinin pozulmasına əsas səbəblər antropoloji və təbii hadisələrdir. Məhz bu əsasda aparılan xüsusi tədbirlərin gücləndirilməsi məqsədəuyğundur. Habelə, bölgəyə səyahət edən turistlərin təmizliyinə riayət edilməsi barədə məlumatlandırılması, həmçinin öz təhlükəsizliklərinin təmin edilməsinə dair məlumat verilməsi kimi işlər öncədən diqqətə alınmalıdır;<br>3. Müasir dövrün texnoloji tələbatına əsaslanaraq, regionun sərvətlərinin texniki qurğularda tanıdılması məhz ekoturizmin üçün təbliği üçün faydalı ola bilər. Həmçinin, mədəni tədbirlərin həyata keçirilməsi də bu əsasda xüsusi yerə malikdir. Ekoloji və təbii-mədəni nümunələrinin tanıdılması Şəki-Zaqatala iqtisadi regionuna olan marağı artırmaqla ekoturizminin potensialına müsbət təsir edə bilər;<br>4. Regionda çağdaş dövrün tələblərinə diqqət ayırmaq yaxşı olar. Dünya ölkələrin təcrübəsi bu mənada çox faydalı ola bilər. Beynəlxalq təcrübələrə əsaslanaraq, bölgədəki ekoloji turizmin yüksəldilməsinə şərait yaradıla bilər. |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Nəzərdə tutulmuşdu, ancaq üzrlü səbəbdən olmayıb |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | 1. 25 mayda Malawi-Scotland Governance Webinar Series Scotland Malawi Partnership – "New Directions for Governance in Malawi" adlı onlayn vebinarda;<br>2. 26 mayda "Introduction to the Nature Recovery Network (NRN) – what is it and why is nature recovery important to my business?" adlı onlayn vebinarda iştirak edilmiş və sertifikatla təltif olunub;<br>3. 27 – 29 may tarixləri arasında İzmir Ekoloji Fuarının Etkinlik proqramının 4. Uluslararası Akdeniz İklimlerinde Organik Tarım Konferansı: Tehditler ve Çözümler (4th International Conference on Organic Agriculture in Mediterranean Climates:Threats and Solutions) adlı onlayn konfransda;<br>4. 23 iyun iyunda Londonda keçirilən"Air Quality Forum 2022" adlı onlayn vebinarda;<br>5. 8 iyulda Singapurda (Sungei Buloh Wetland Reserve) keçirilən"Let's learn about ecotourism - responsible travelling to learn about nature" adlı online virtual turda;<br>6. 16 iyulda Dubayda baş tutan "The Business Case of LEED Green Buildings" adlı onlayn vebinarda;<br>7. 7 sentyabrda Radical Social Work Webinar Series - Organizer of Scotland's National Care Service Bill – Problems and prospects a trade union view for social workers adlı onlayn vebinarda;<br>8. 29 sentyabrda The changing environmental requirements for major infrastructure planning – Biodiversty Net Gain and implications of the Environment Act adlı onlayn vebinarda iştirak edilib. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə |

| | |
|---|---|
| | məmulatları |
| | |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfdaşlığı ilə Beynəlxalq Muzeylər Günü münasibətilə Şirvanşahlar Sarayı Kompleksində Suğra Bağırzadənin "Gülün gücü" adlı fərdi sərgisində iştirak edilib. |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Türkiyənin Global Enstitü platformasında "Çevre Koruma", "Küresel ısınma və etkileri" və "Hava kirliliği"adlı onlayn kurslarda iştirak edilib və sertifikat kodları əldə edilib. |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | |

**SİFARİŞÇİ:**

**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

__________________

*(imza)*

" __" ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Nəzərova Gülnar Fərrux qızı**

__________________

*(imza)*

" __" ________ 20_-ci il

## AZƏRBAYCAN ELM FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycanın şimal-qərb regionlarında ekoturizmin inkişaf problemləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/05/2-M-05**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Layihə Azərbaycanın şimal-qərb rayonlarının ekoturizm potensialının inkişaf perspektivinə maneə olan problemlərin araşdırılması üzrədir və nəticələr barədə öncəki hesabatlarda geniş məlumat verilmişdir. Təbii və insan amilləri burada başlıca rol oynayır. Buna baxmayaraq, əldə olunmuş nəticələr həm də onu göstərir ki, insan subyekt olaraq, regionun inkişafı üçün əsas rol oynayan obrazdır. Məhz bu səbəbdən, bölgənin ekoloji mühiti barədə maarifləndirmə işləri xüsusi önəm kəsb edir. Habelə, Azərbaycan Respublikasının bu əsasda apardığı uğurlu siyasət danılmaz faktdır. Ancaq hazırkı dövrün qlobal problemlərini də nəzərə almaq lazımdır. Dünya hazırda güclü ekoloji problemlərlə qarşı-qarşıya qalıb. Ona görə də, xarici ölkələrin ekoloji turizm üçün apardığı siyasət maraqlıdır. Həmçinin, əldə edilmiş nəticələr sırf Şəki-Zaqatala regionuna aid olduğu və ekoloji, sosioloji və kulturoloji aspektdən birgəlikdə təhlil edildiyi üçün analoqu yoxdur. |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq |

| | |
|---|---|
| | (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | Layihənin təcrübi həyata keçirilməsi Şəki-Zaqatala iqtisadi regionunun ekoloji mühitinin qorunması üzrə çalışmaların gücləndirilməsi və bu işlərə cəlb edilmiş insanların, habelə ziyarət edən turistlərin, ekoloji qaydalara riayət edən qonaqların miqdarı ilə ölçülə bilər. |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Layihədən əldə edilmiş nəticələr nəzəri və əməli cəhətdən mühüm əhəmiyyət kəsb edir. Layihə Şəki-Zaqatala regionunun ekoturizm potensialını dərindən öyrənməklə, bərabər, geniş bir tədqiqat işidir. Bu işin nəticələrindən bölgənin ekoloji turizminin inkişafına əngəl olan məsələlərin aradan qaldırılmasında və perspektivlərinin yüksəldilməsində istifadə edilə bilər, bununla da, ölkə ekoturizminə töhfə verilmiş olar. Habelə işin nəticələri nəzəri cəhətdən araşdırmaçılar üçün mühüm bir tədqiqat əhəmiyyəti daşıyır. |

**SİFARİŞÇİ:**
**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

_______________
*(imza)*
“ __” ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Nəzərova Gülnar Fərrux qızı**

________________
*(imza)*
“ __” ________ 20_ -ci il

**AZƏRBAYCAN ELM FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycanın şimal-qərb regionlarında ekoturizmin inkişaf problemləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/05/2-M-05**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 4 | | |
| | | 4 | | |

| | | | | |
|---|---|---|---|---|
| | həmçinin xarici nəşrlərdə | | | |
| | | | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

**3. Elmi tədbirlərdə məruzələr (sayı)**

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Azərbaycan Elm Fondu**

**İCRAÇI:**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

___________________

*(imza)*
“ __” ________ 20_-ci il

**Layihə rəhbəri**
**Nəzərova Gülnar Fərrux qızı**

__________________

*(imza)*
“ __” ________ 20_-ci il